## Günel Dəmirəsənoğlu Qızı

### Xoşbəxtliyin Astanasında

Xoşbəxt bir sevginin astanasında
Uğurlu bir yolun başındayam mən.
Qarşıdan bir bahar al-əlvan gəlir,
Baxma ki, taleyin qışındayam mən.

Baxma ki, ömrümdən illər puç oldu,
Keçilməz əngəllər gücümü aldı,
Enişlər, uçrumlar arxada qaldı,
Taleyin hamar yoxuşundayam mən.

Hələ qarşıdadır gözəl gələcək,
Hələ qönçəsində gözləyir çiçək,
Sən, ey qəm buludu başımdan əl çək,
Sevinib-güləcək yaşındayam mən.

Acı iztirabda həsrətdən uzaq,
Yalançı sevgidən, minnətdən uzaq,
Daha xəyanətdən, nifrətdən uzaq,
Rahat həyat axtarışındayam mən.

Uzağam lüzumsuz ehtiyaclardan,
Deyiləm qarnı tox, gözü açlardan,
Uğurla çıxmışam qaça-qaçlardan,
İndi qovha-qov yarışındayam mən.